# AYB-də qurultayqabağı toplantı



Sentyabrın 16-da AYB-nin "Natəvan" klubunda əvvəlcədən elan edilmiş qurultayqabağı ədəbi tənqid və tərcümə seksiyalarının birgə toplantısı keçirildi.

Tədbiri Azərbaycan Yazıçılar Birliyinin katibi, yazıçı-dramaturq Elçin Hüseynbəyli açaraq, AYB-nin XIII qurultayı ilə bağlı hazırlıq məsələləri, eləcə də katibliyin qərarları haqqında geniş məlumatlar verdi. Çıxışçı bildirdi ki, qurultaya nümayəndələr AYB-nin mövcud Nizamnaməsi, daxili sənədlər, katibliyin qərarları əsasında seçilir və bu baxımdan bölmələr, seksiyaların toplantılarında namizədlər müəyyənləşdirilir. E.Hüseynbəyli onu da əlavə etdi ki, çağdaş ədəbi-mədəni həyatımızda əlamətdar hadisə kimi keçiriləcək qurultay, mədəniyyətimizin, ədəbiyyatımızın mühüm bir tarixi kimi geniş ictimaiyyət, söz sənəti nümayəndələri, oxucular və qonaq kimi dəvət almış xarici həmkarlarımız tərəfindən səbirsizliklə gözlənilir.

AYB Ədəbi Tənqid seksiyasının rəhbəri, tənqidçi Bəsti Əlibəyli, Tərcümə seksiyasına başçılıq edən yazıçı-mütərcim Kamran Nəzirli, YYSİB sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov, ədəbiyyatşünaslardan Rüstəm Kamal, Vaqif Yusifli çıxış edərək rəy və təkliflərini səsləndirdilər.

Aydın Xan Əbilov qurultayın daha geniş kütlələrini əhatə etməsi, eləcə də xaricdə yazıb-yaradan qələm adamlarımızın da prosesə qoşulması üçün real iştirakla yanaşı, hibrid, yəni İnternet üzərində canlı yayım təşkil etməklə bağlı təklif irəli sürdü.

Toplantını yekunlaşdıran E.Hüseynbəyli seksiya sədrlərinin, eləcə də çıxışçıların təklifləri ilə bağlı ümumiləşdirici fikirlərini çatdırdı, katibliyin qərarının əsas olduğunu vurğulayaraq, müzakirələrin səmərəli keçdiyini söylədi.

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 17 sentyabr.- S. 7.